**Elnur Uğur**

# 13 ƏFSANƏ

poema

**Bakı - 2023**

Ön söz müəllifləri:

**Çingiz ABDULLAYEV**
Xalq Yazıçısı

**Vaqif YUSİFLİ**
Filologiya elmləri doktoru

**Esmira FUAD**
Filologiya elmləri doktoru

Redaktor: **Əsəd CAHANGİR**

Texniki redaktor: **Güləmail MURAD**
Şair-publisist, Prezident təqaüdçüsü

Korrektor: **Elvin İNTİQAMOĞLU**
Şair-filoloq

**Elnur Uğur / 13 ƏFSANƏ (poema)**
**Bakı, "Ecoprint" nəşriyyatı, 2023. 100 s.**

"13 Əfsanə"əsəri Elnur Uğurun 7-ci kitabıdır. Kitabda 44 günlük Zəfər savaşımızda misilsiz qəhrəmanlıq göstərən 1-ci əfsanəvi taborun 13 şəhidinin keçdiyi döyüş yolu qələmə alınıb. Əsərdə, eyni zamanda, 13 Şəhidin hər birinə ayrı-ayrılıqda şeirlər həsr olunmuşdur. Əsərboyu müəllifin vətən sevdasının şəhidlərimizin qəhrəmanlığı ilə paralel şəkildə təqdimatı diqqətçəkicidir. Vətən məhəbbəti poemanın leytmotividir.

**İSBN: 978-9952-8176-5-2**

**©Elnur Uğur Abdiyev, 2023**



**Kapitan**
**Şirinov Kamil**
**Əliş oğlu**
**Qarabağ ordeni**
*09.04.1991-29.09.2020*



**Kiçik Gizir**
**Zülfüqarov İlkin**
**Nurəddin oğlu**
**Vətən uğrunda medalı**
*08.08.1989-08.10.2020*



**Kiçik Gizir**
**Fezullayev Beyrək**
**Seyfulla oğlu**
**Vətən uğrunda medalı**
*30.04.1997-03.10.2020*



**Baş gizir**
**İsmayılov Camal**
**Vidadi oğlu**
**Vətən müharibəsi qəhrəmanı**
*07.07.1984-19.10.2020*



**Baş Gizir**
**Cəbrayılov Sübhan**
**Rahim oğlu**
**Vətən müharibəsi qəhrəmanı**
*23.10.1983-19.10.2020*



**Gizir**
**Vəliyev Elyar**
**Arif oğlu**
**Vətən müharibəsi qəhrəmanı**
*17.10.1991-19.10.2020*



**Gizir**
**Quliyev Şəhriyar**
**Nəsib oğlu**
**Qarabağ ordeni**
*25.05.1990-19.10.2020*



**Leytenant**
**Qənbərli Elton**
**Baba oğlu**
**Vətən uğrunda medalı**
*01.02.1997-19.10.2020*



**Baş Leytenant**
**Abbasbəyli Həmid**
**Cavanşir oğlu**
**Qarabağ ordeni**
*17.11.1991-19.10.2020*



**Gizir**
**Haşımov Tərzan**
**Qəhrəman oğlu**
**Vətən uğrunda medalı**
*13.04.1989-19.10.2020*



**Kiçik Gizir**
**Əliyev Kərim**
**Məhəmmədəli oğlu**
**Vətən uğrunda medalı**
*31.08.1998-19.10.2020*



**Kiçik Gizir**
**Tağıyev Ramiq**
**Teymur oğlu**
**Vətən uğrunda medalı**
*31.10.1998-09.11.2020*



**Baş Leytenant**
**Əzizov Xəyyam**
**Əli oğlu**
**Azərbaycan bayrağı ordeni**
*08.11.1995-08.11.2020*

# ƏBƏDİYYƏT ABİDƏSİ

Elnur Uğurun 1-ci əfsanəvi taborun 13 əfsanəsi haqda poemasını oxudum və bəyəndim. Poemada şairin Azərbaycanımızın 44 günlük zəfər savaşında tarixi zəfərimizin qazanılmasında müstəsna rolu olan igidlərimiz haqda qələmə aldığı detallar diqqətçəkicidir. Şairin əsərində qəhrəmanlarımıza sözdən ucaltdığı abidə hamımızın qürurla andığı adların sayğısına ucaldılıb. Elnur Uğur əsəri ilə gələcəyə mesaj ötürür. Şair poemada dönə-dönə qeyd edir ki,şəhidlərə bu Vətənin bir vəfa borcu var.Burada biz də öz məsuliyyətimizi aydın dərk edirik. Şəhidlərin uğrunda canlarını fəda etdikləri müqəddəs amallar qəlbimizdə möhkəm yer tutmuşdur. Gözəl Vətənimizin şəhid bacı və qardaşlarımızın qanı ilə qazanılan müstəqilliyini, azadlığını göz bəbəyi kimi qorumağı və möhkəmlətməyi həyatda əsas məqsədimiz sanırıq.

Bu gün ölkənin hər yerində şəhidlərin əziz xatirəsinə dərin ehtiram bəslənildiyinin şahidi olmaq mümkündür. Bakının ən uca yerində qərar tutan Şəhidlər xiyabanı dövlət tərəfindən yüksək səviyyədə abadlaşdırılıb və bütün azərbaycanlıların, Vətənimizi, xalqımızı sevən hər kəsin and, ziyarət yerinə çevrilib. Burada

yaradılan möhtəşəm kompleksdə şəhidlərin xatirəsinə əbədi məşəl alovlanır. Bundan başqa, respublikanın digər iri şəhərlərində, rayonlarında, kənd və qəsəbələrində də Şəhidlər xiyabanı vardır.

Böyüməkdə olan nəslin təlim-tərbiyə aldığı çoxlu sayda məktəbə şəhidlərin adı verilib, onlarla küçə, park şəhid bacı və qardaşlarımızın adını daşıyır, yolların kənarlannda, məhəllələrdə, gediş-gəliş gur olan yerlərdə onların xatirəsinə ehsan bulaqları tikilib, gənc ailələrdə yurdumuzun neçə-neçə Çingizi, Əlifi, Koroğlusu, Azəri, Camalı, Sübhanı, Şəhriyarı, Elyarı, Ramiqi, Tarzanı, Eltonu, Xəyyamı, İlkini, Beyrəyi, Kamili, Həmidi, Kərimi böyüyür...

Bütün bunlar insanların şəhidlərin xatirəsinə ehtiramlarının, həssas münasibətlərinin ifadəsidir. Şəhidlərin davamçıları varsa, arzuları həyata keçirsə, xatirələri hər yerdə anılırsa, deməli, onlar ölməyiblər, sıralarımızda yaşayırlar. Elə bu əsərdə də ölümsüz olan şəhidlərimizə sözdən bir abidə ucaldılıb: Əbədiyyət abidəsi. Qəhrəmanlarımızın xatirəsini yaradıcılığında daim uca tutan Neftçalalı yazara can sağlığı, uzun ömür, ailə səadəti və yaradıcılıq uğurları arzulayıram.

**Çingiz ABDULLAYEV**
*Xalq Yazıçısı*

# YAŞAYANLAR ÖLMÜR

Onlar vətən uğrunda müharibəyə, ölüm-dirim vuruşuna yollandılar. On üç igid! Bu oğullar Azərbaycanın müxtəlif bölgələrindən gəlmişdilər. Vətənin azadlığı uğrunda döyüşlər onları ruhən, mənən birləşdirdi, bu oğullar bir oldular.

***“Köləlikdən azadlığa,***

***Neçə ruhu oyatdılar”*** – Hamısı şəhid oldu,amma yenə bir oldular-torpağın altı da vətən deyilmi?

Hələ 90-cı illərin əvvəllərində - Birinci Qarabağ müharibəsi zamanı Xalq şairi Qabil bir şeirində yazmışdı. “Ümid sənədir ancaq, Azərbaycan əsgəri” O zaman şairin bu arzusu reallaşmadı. Nə qədər şəhid verdik-torpaqlarımızın iyirmi faizi işğal olundu və nəinki çöllərimiz, yurd yerlərimiz, parklarımız da qana boyandı, iyirmi səkkiz il həsrətin, ümidsizliyin əsarətində olduq, göylərə göz dikib Allaha üz tutduq. Nəinki ürəyimiz, gözümüzə, şeirimizə də kədər yaşları, qəm buludları səpələndi. Az qala bütün dünya bizə asi oldu. Ancaq bu illər ərzində qəlbimizdə ümid qığılcımları da şölə verirdi. Bilirdik ki, ulu öndər Heydər Əliyevin təməlini qoyduğu yeni Azərbaycan ordusu Ali Baş Komandan İlham Əliyevin əmri ilə işğal altında olan torpaqlarımızı erməni faşistlərindən xilas edəcək. Lələtəpə və Tovuz döyüşlərindən

sonra nqəlbimizdəki o ümid şölələri artır. Nəhayət, 27 sentyabr, 44 günlük böyük zəfərimizin ilk günü. Mən təfərrüata varıb müharibənin bütün gedişatı haqqında məlumat vermək fikrində deyiləm. Bu barədə kitablar yazılır, məqalələr dərc edilir, verlişlər verilir. Lakin nə qədər yazılsa da, yazılmayan şeylər də çoxdur. Poeziya da bu mənada susmur və Elnur Uğur Abdiyevin poeması da 1-ci əfsanəvi tabor haqqında qələmə alınan ilk bədii əsərdir. Əlbəttə, bu taborun döyüş və şəhidlik yolu barədə publisistik bir əsər də yazmaq olardı, amma poeziya dili ilə şəhidlik və qəhrəmanlıq haqqında söz demək daha mənalıdır. Elnur Uğur Abdiyev təsvir etdiyi qəhrəmanlara zəfər nəğməsi oxuyur. Hərçənd ki bu zəfər nəğməsində kədərli notlarla da qarşılaşırıq. O, şəhidliklə qəhrəmanlığı vəhdət halında götürür. Çünki şəhidlik qəhrəmanlığa aparır. Bəxtiyar Vahabzadənin “Şəhidlər”poemasına sadiq qalır Elnur.

Mən Elnurun bir neçə şeir kitabını oxumuşam, mətbuatda dərc olunan şeirlərini də izləyirəm. Özünəməxsus şair fərdiyyəti ilə seçilir. Onun şeirləri barədə bir məqalə də yazmışam. Amma onun poemanın “Proloq” hissəsində əruz vəznində yazdığı heç bir şeiri ilə qarşılaşmamışdım. İstərdim ki, o əruzda da qələmini sınasın və uğurlarını gələcəkdə bu istiqamətdə də özünəməxsusluqla davam etdirsin.

***Ey Şəhid oğlu Şəhid, bil ki müqəddəs bu Vətən,***
***Al qanınla yuyulub oldu Vətən torpaq ikən!***
***O kəfən eylədiyin bayrağın üstündəki al,***
***Gecələr nur ələyər qəbrinin üstə o hilal!***
***Tabutu yurd olanın torpağı cənnət bitirər,***
***Bir şəhid sevdası göydən də şəfaət gətirər.***
***O şəhid sevdasının zəvvarı olmaq da nə xoş?***

Poemada öndə qeyd etdim ki, nikbin notlarla elegik ruh vəhdətdədir, biri o birini tamamlayır. Bu, əslində İkinci Qarabağ müharibəsinin xarakterini səciyyələndirir. Biz hər gün Azərbayacan ordusunun qələbələrlə dolu zəfərlərinin şahidi olurduq, amma eyni zamanda bu qələbələr şəhidlərsiz ötüşmürdü. Amma get-gedə qələbələrin sayı, sanbalı artdıqca sanki kədərimizi unudurduq. Nəhayət, Ermənistanın təslimçilik aktına qol çəkdiyinin şahidi olduq. Amma bu qələbənin qazanılmasında qəhrəman oğullarımızın itirildiyini də unutmadıq. Elnur Uğur Abdiyevin poemasında məhz qəhrəmanlıqla şəhidliyin bir sırada olduğunu görürük. Poemada 1-ci tabor döyüşçülərinin qəhrəmanlığa yüksələn şəhidliklərinin vəhdətini izləyirik. Müəllif o döyüşçülərin hər birinin qəhrəmanlığı ilə tanış olur, onları alqışlayır, sonra isə şəhidliklərinə acıyır.

Bu – Elton Qənbərli – 23 yaşı var idi.

***Şuşadan Qarabağa***
***Eşq nəğməsin oxudun.***
***Sənin ölümün,Şəhid***
***Eşq adlı bir yuxudur.***
***Səndən başlanır Vətən,***
***Səndən doğur azadlıq!***

Son iki misranı Elnurun bütün qəhrəmanlarına aid edirik. Elnur hər bir şəhid qəhrəmanın ölümünə poetik rəng qatmağı bacarır.

Bu – Xəyyam Əzizov:

***Tabuta sığmayan Şəhid!***
***Cismin yer altına sığır?***
***Yerin altından-üstünə,***
***Ruhun hər gün Günəş doğur.***

Bu – Şəhriyar Quliyev yüz əlli ermənini dizə gətirən oğul!

***Cismən köçsən də ruhən -***
***Varsan, hər zaman var ol!***

Elnur eyni qürur hissiylə "Hadrut fatehi" Camal İsmayılovu da, Ramiq Tağıyevi də, digər şəhid

qəhrəmanları da vəsf edir. Ucarda doğulan Kərim Əliyev haqqında yazır:

***Ucarda doğuldu Kərim,***
***Qorudu yurd ucalığın.***

Həmid Abbasbəylini, Tərzan Həşimovu, Elyar Vəliyevi, Beyrək Fezullayevi, qazi Ayar Abbasovu da unutmuruq. Komandir Kamil Şirinovu necə unudaq?

***Kamil yaratdı Tanrı,***
***Kamil səni, Şəhidim!***
***Vətən səni çox sevdi,***
***Sən Vətəni, Şəhidim!***

Əlbəttə, mən poemada təsvir olunan və hər bir döyüşçünün qəhrəmanlıqdan şəhidliyə ucalan mərdlik yolu barədə geniş söz açmaq fikrində deyiləm. Elnur bütün bunları poetik şəkildə incələyib. Və deyim ki,bu poemada bir əsas qəhrəman da var – o da Ali Baş Komandan İlham Əliyevdir. Məhz onun Azərbaycan və dünya müharibə tarixində misilsiz sərkərdəlik məharəti və Azərbaycan ordusunun qalibiyyətli yürüşləri ilə 28-30 illik həsrətə son qoyuldu. İlham Əliyev 1-ci taborun döyüşçülərinin  hər birini ordenlərlə təltif etdi.

Elnur Uğurun poemasını təqdir edir, bu əsəri poeziyamızda, Müharibə-Qələbə mövzusunda yazdığı əsərlər sırasında birincilərdən sayıram.

**Vaqif YUSİFLİ**
*Filologiya elmləri doktoru*

# AŞİQLİK DÖZÜLMƏYƏNLƏRƏ DÖZƏ BİLMƏKDİR...

*Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur...*

***(Heydər Əliyev)***

Vətən-Qarabağ aşiqlərinin II Qarabağ savaşı zamanı yaratdığı yeni əsrin möcüzəsi, əslində Azərbaycan ərənlərinin dünyaya keçdiyi Uluyurda aşiqlik – Vətən eşqi dərsidir. Aşiqlik isə öləsiyə sevdalanmaqdı... "Susuzluğun od vurub köz kimi yandırdığı dodağın (Ə.Kərim)" su sevməsi kimidi... Öləcəyini bilə-bilə ölüm mələyinin çağırışına qoşmaq, keçilməz dağ cığırlarının yolçusu olmaq, qayalıqların bağrını yara-yara ecazkar, möcüzə şəhər Şuşaya yol açmaqdı... Aşiqlik anatək, sevgilitək sevdiyin yurdun, azadlığı uğruna vuruşduğun Şuşa, Laçın, Kəlbəcər, Füzuli, Suqovuşan, Qubadlı, Zəngilan, Ağdam, Cəbrayıl, Xankəndi, Xocavənd, Ağdərə üçün gözünü qırpmadan canını fəda etməkdi, döyüş səngərlərinə atıldığın Vətən müharibəsinin od-alovları içində ən gözəl eşq şeirini məhz Vətən üçün yazmaqdı... Heç şübhəsiz, II Qarabağ savaşı günlərində hər birimizin nəfəsini içinə çəkib oxuduğu o ən gözəl şeiri məhz rəşadət-

li əsgərlərimizin gülləəri, ürəklərində şahə qalxan qisas hissi yazdı... Ən mükəmməl əsəri - 44 gün ərzində şanlı tariximizin yeni qızıl səhifələrini isə Uluyurdun azadlığı uğruna şirin canından keçib şəhidlik zirvəsinə ucalan ərənlərimiz yazdılar… Və bu əsər göstərdi ki, aşiqlik eşq ağacının 28 il gec gətirdiyi bəhrəni dözülməyənlərə dözə bilib gözləməkdi... Gözlədilər, gözləməyə də dözdülər igidlərimiz... Dözdülər, çünki bilirdilər ki, sonda indi özü və sözü ilə ilgili geniş bəhs edəcəyim gənc və istedadlı şair Elnur Uğurun dediyi kimi:

***Eşqin Günəşi öpəcək dan yerini.***
***Mütləq qovuşacaq Şuşan sənə,***
***Qarabağın pəncərələri açılacaq***
***Təmiz hava axacaq Laçın dəhlizinə.***
***Orda bağrı çatlayır məşuqun da…***
***Aşiqlik budur elə…***
***Yanmadınsa eşq odunda***
***Kündə olsan da, bişməyəcəksən,***
***Eşq nədir bilməyəcəksən ölənəcən,***
***Aşiqlik səfərbərlikdir içindən-çölünəcən…***

Təbii, 44 günlük Vətən müharibəsi göstərdi ki, 28 il ərzində Uluyurdun aşiqləri özlərini “içindən-çölünəcən səfərbər” edərək məhz qisas günü üçün hər gün hazırlıq dərsləri keçibmişlər… Buna görə də Yurd aşiqi ərənlərimiz döyüşə gülə-gülə gedir-

dilər**...** Dillərində “Anadır arzulara hər zaman Qarabağ” mahnısının sədaları, ürəklərində Qarabağ sevdası, sınırsız Vətən eşqi...

2020-ci ilin 27 sentyabr tarixindən başlayaraq cənab Ali Baş Komandan İlham Əliyev vandal Ermənistanın azğın ordusunun ardıcıl təxribat və hücumlarına qarşı (özəlliklə son günlərdə Tovuz rayonuna intensiv hücumuna) bütün cəbhə boyu əks-hücum əmri verdi... Sırasında yurd eşqi və düşməndən öc almaq amacı ilə yaşayan ərənlərimizin yer aldığı müzəffər ordumuzun mükəmməl döyüş taktikası, mərdliyi, Azərbaycan xalqının iradəsi, monolit birliyi sayəsində 28 il bundan öncə işğalı başa çatan Qarabağın böyük hissəsi geri alındı. Şanlı ordumuzun cəngavər əsgərlərinin, ürəyi yağı düşməndən terrora uğratdıqları, daşını daş üstündə qoymadıqları əsir torpaqlarımızın, ləyaqəti alçaldılmış qız-gəlinlərimizin qisasını almaq hissi ilə çırpınan ərənlərin igidliyi, qeyri-adi döyüş bacarığı sayəsində illər boyu həsrətində olduğumuz doğma torpaqlar, bəzi rayonlarımız işğaldan azad edildi. 2020-ci ilin 8 noyabr günü isə tariximizin hələlik ən yeni mərhələsi, Şuşanın azad olunması-Zəfər günü oldu... Qarabağın üzük qaşı, musiqi beşiyi Şuşanın dağlarından duman çəkildi, üzü təbəssümlə işıqlandı... Azərbaycan əsgəri uzun illər həsrətində olduğu doğma yerlərdə milli bayrağımızı dalğalandırdı! Vətənimizin hər

guşəsindən, on milyonluq xalqın dilindən qopan "Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" sədaları göylərə ucaldı... Bu sədaları ədəbiyyatda ucaldanlardan biridir Vətəndaş-şair Elnur Uğur Abdiyev... Əfsanə yaradan, "Hadrut fatehi", "Sultan Şəhid", "Bütün yollar Şuşaya aparır", "13 Əfsanə" poemaları və bir sıra şeirləri ilə Vətənləşən igidlərimizə dastanlar bağlayandı Qarabağ sevdalı, Şuşa eşqinə təşnə olan Elnur Uğur...

Mənim qəhrəmanımın "Elə yaşayasan" adında... bir şeiri var və düşünürəm ki, bu şeiri Elnurun həyat kredosu saymaq olar:

***Elə yaşayasan, elə öləsən,***
***Yaşada biləsən yoxkən çoxunu.***
***Zamantək bu qəddar nişangaha da,***
***Tuşlaya biləsən ömür oxunu.***

***Qarşına həyat daş dığırlamaya,***
***Könlün qulaqları sağırlamaya.***
***Həsrət gecələri oğurlamaya,***
***Kaş çəkə çarmıxa sevgi yuxunu.***

***Eşqsiz can düşəcək əsarətinə,***
***Bədən dözməz ruhun xəsarətinə.***
***Ölüm yenik düşə cəsarətinə,***
***Həyata uduza zaman qorxunu.***

Həyatda yoxkən belə çoxunu yaşada bilməyi, sevginin yuxuda keçən zamanları çarmıxa çəkməsini, ölümü cəsarətə yenilməsini arzulayan və bir çox mövzuda mükəmməl şeirlər yazsa da, Elnurun yaradıcılığında II Qarabağ savaşı, Şəhidlik mövzusu aparıcı xətt təşkil edir. Onu igidlərimiz haqqında şeir və poemalar qələmə almağa sövq edən isə ruhunun, Vətənə sınırsız bir eşqlə çırpınan ürəyinin səsidir. Ruhunun, Vətən eşqinin diqtəsi ilə qələmə aldığı “Hadrut fatehi”, “Sultan Şəhid”, “Bütün yollar Şuşaya aparır”, “13 Əfsanə” poemaları bu uca ruhun kanıtıdır. Şəhid analarını, atalarını dərindən duyan, onların gözlərindən axan hər damla yaşdan Vətənin axdığını görə bilən şair bu mövzuya həssas yanaşır. Şəhid analarının ürəyindən nələrin keçdiyini dərindən duyub anlayan Elnur onların hər birini öz anası sayır. Anlayır ki, Şəhid anası onun da baş tacı, ürək parasıdır. Demək ki, qadın-analar özləri üçün deyil, məhz Vətən üçün yaşayıb ona onu qorumağa qadir oğullar verib, o oğullar da Vətənləşiblər. Qadınları inqilabi romanlara bənzədir Elnur, bu romanın hər səhifəsində əzmkarlıq, mətanət və dözüm olduğuna, ilk səhifəsindəncə fəlsəfə ilə açılmasına, təbiətə üz tutub ondan rişələnib hər hərfini Sevgi ilə yazdığı bu kitabda kişilərə səhifə-səhifə səhvlərini anladan bu bu romanı hər kəsin oxumasını önərir və Qadını Tanrının ən böyük möcüzəsi sayır:

***Qadınlar kitab kimidir,***
***Oxuduqca anlayırsan dərin!***
***Yaşamağa səsləyir qadın həyatı.***
***Özü üçün yox,***
***Özgəsi üçün bəsləyir qadın həyatı!***
***Qadınlar,***
***Elə buna görə inqilabi romandılar!***
***Özləri üçün yaşamırlar.***

Qadınların - Anaların doğurduğu, südü ilə bəsləyib laylaları ilə Uluyurda sevgi aşıladığı balaca kişiləri - vaxtı gələndə Vətənləşən, cəngavərləşən oğulları dastanlaşdıran Elnur ilk olaraq, Vtən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun adına “Hadrut fatehi”ndə “yarasından Vətən axan misraları” ilə heykəl yonub. Elnur Uğur “Hadrut fatehi” poemasını Xüsusi Təyinatlı Qüvvələrdə kəşfiyyatçı kimi fəaliyyətə başlayan, rus, ingilis və erməni dillərini mükəmməl bilən və hər üç dildə fikirlərini sərrast ifadə etməyi bacaran, Aprel döyüşlərində isə qəhrəmanlığı ilə fərqlənən Camal İsmayılovun həyat və döyüş yoluna həsr edib. Qəhrəmanının şücaətlərini coşğunluqla vəsf edən, yaşamının bütün anlarını şeirləşdirən şair onun Vətən müharibəsi başlanan gün söylədiyi ilk cümləni - *“Bu dəfə torpaqlarımızı mütləq geri qaytaracağıq!”* – hökmünü poemanın əsas ideyası seçib və sonadək bədii məqsədinə sadiq qalıb...

Azərbaycanın 83 nəfər Vətən Müharibəsi qəhrəmanından biri, Xüsusi Təyinatlı Qüvvələrin baş giziri Camal İsmayılov sentyabrın 27-dən əsir torpaqlarımızın erməni vandallarından azad etmək uğrunda döyüşlərə atılıb, Füzuli, Cəbrayıl, Zəngilan, Ərgünəş yüksəkliyinin, həmçinin Laçın dəhlizinə nəzarəti təmin edən yüksəkliyin alınmasında xüsusi fədakarlıqlar göstərib. Rabitə və yüksək texnologiyalar sahəsinin mütəxəssisi olan Camal ermənilərin rabitə sisteminə qoşulub və dünya hərb elmi tarixində əbədi qalacaq bir uğurlu əməliyyatın keçirilməsində önəmli rol oynayıb: "*Hadrutu müdafiə edən 1500 nəfərlik erməni briqadasına erməni dilində əmr verib ki, geri çəkilin. Beləcə, bir güllə belə atmadan 1500 nəfər erməni döyüşçüsünü zərərsizləşdirib...*" və Hadrut azad olunub. Azərbaycanın Şuşaya – unikal zəfərə doğru gedən yol məhz Hadrutun işğaldan azad edilməsi ilə açılıb. Hadrutun fəthində böyük şücaət və hərbi məharət göstərdiyinə görə, Camal "Hadrut fatehi" adını qazanıb. Ali Baş Komandan İlham Əliyev də çıxışlarında Hadrut əməliyyatının nə qədər gərəkli olduğunu vurğulayıb: *"Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq..."*

Camal İsmayılovun örnək olası ömür yolu Qubadlı istiqamətində gedən döyüşlərdə başa çatır. O, düşmənlə qeyri-bərabər döyüş zamanı dəstə üzvləri, 1-ci taborun 13 əfsanəsi ilə birlikdə qəhrəmancasına vuruşaraq şəhid olur... “Hadrut fatehi” poemasında bu gerçəkləri şeirləşdirən, Camalın şərəfli ömür və nümunəvi döyüş yoluna bədii don biçən Elnur Uğur qəhrəmanının mükəmməl, cazibədar obrazını yarada bilir...

XTQ-nin 1-ci taborunun ər döyüşçülərinə həsr etdiyi “13 Əfsanə” poemasında isə “Hadrut fatehi”i poemasında və Vətən-Qarabağ mövzulu şeirlərində yazdıqları ilə ürəyi soyumayan, qutsal döyüşlərdə döyüşçü qardaşlarının göstərdiyi təkrarsız şücaətlər, əfsanəvi igidliklər haqqında sözünü hələ də bütünlüklə deyə və onlara qardaşlıq, vətəndaşlıq borcunu ödəyə bilmədiyini düşünən şair XTQ cəngavərlərinin - 1-ci taborun 13 əfsanəsinin döyüş yolunu poetik ustalıqla vəsf edir və o ər oğulların şəhidlik şərbətini içərək şəhadətə yüksəlməsini iftixar hissi, eyni zamanda onların gəncəcik ömürlərinin yarıda qırılıb həyatdan nakam köçmələrini qəlb ağrısı ilə qələmə alır. Milli Orduya onu Şuşaya aparan yolları “qarğalardan” - erməni cəlladlarından təmizləyərək yol açan XTQ-nin 13 cəngavərinin hər birini o böyük qardaş sevgisi ilə əzizləyərək oxucularına təqdim edir, sevə-sevə tanıdır:

***Ey Şəhid oğlu, məzarın bizə bir and yeridir!***
***Sən Vətən andı içib andına sadiqliyini,***
***Sübut etdin zaman əfsanəsi gerçəkliyini.***

***Yazdı öz qanı ilə gör nə azadlıq əsəri,***
***Qəhrəman bir taborun möhtəşəm əfsanələri!***

***Sübhanımla Kamilim, Şəhriyarımla Camalım,***
***Hər biri sevgi yuxum, bir də yenilməz amalım!***
***Ramiq, Elyar, Həmidim, Xəyyam ilə Tərzanım***
***Bir azadlıq çiçəyim, onlar ümidim, gümanım!***
***İlkinim, Beyrəyim, Elton, Kərimim haqq mizanı,***
***Qanıdır ki, Vətənin gəldi cana bir də canı!***

Maraqlıdır ki, Elnur bu poemaların hər birini üç vəzndə qələmə alır, təbini, fikirlərini, duyğu və düşüncələrini hansı vəzndə misralara daha axıcı söz və ifadələrlə rahatlıqla hopdura biləciyini anlayaraq vəzndən-vəznə atlayır, dərdini və sevincini daha kəsərli ifadə üçün əruz, heca və yaxud azad-sərbəst vəzni seçir. Bununla şair həm də şairlik məharətini sərgiləmiş olur. “Bütün yollar Şuşaya aparır” poemasından örnəklərdə olduğu kimi:

***Sən Kürün Arazı, Xəzərin Kürü,***
***Sən yurdun qibləsi, qəlbin səcdəsi.***
***Qazi yarasından axan sevgisən,***
***Sən Şəhid eşqinin cənnət müjdəsi!***

***Hopur ürəyimə sevgidən qopan,***
***Səsi məhəbbətin barı bülbülün.***
***Hər yarpağı rəng-rəng sevgidən açır,***
***Neçə il həsrətli Xarıbülbülün.***

***Səması ağappaq, göyü dumduru,***
***Şuşada ruhları səcdəyə gəlin!.***
***Gün o gün olsun ki, ulu Göyçənin,***
***Təbrizin başına, Şuşa, sağ əlin!***

Diqqətli oxucu son dörd misrada Elnur parçalanmış böyük Azərbaycana birlik arzusunu el deyiminə söykənərək Şuşanın sağ əlini Göyçənin, Təbrizin başına qoymaqla bildirir. *"Yolunda canıma qıya bilmədim, Bacara bilmədim* ölməyi, Vətən! Səndə Araz boyda məzar qazdılar, Öyrəndim mən həsrət hörməyi, Vətən!" ağrısına onun "Bütün yollar Şuşaya aparır" poemasında sərbəst şeir üslubunda yazdığı aşağıdakı misralar sanki sığal çəkir, obrazlı şəkildə şəhid qanı ilə Şuşa behiştinə bir daha düşmən ayağı dəyməyəcək deməsi birlik arzularının gerçəkləşəcəyinə inamını aşkarlayır:

***Əziz Şuşam, azadsan!***
***Sən layiqsən,***
***Bütün gözəlliklərə!***
***Düşmənin xülyasını,***
***Dəfn edən oğulların***

***Qanıyla qüsullanan bu behiştə***
***And olsun Allaha ki,***
***Düşmən ayağı dəyməz,***
***Yox, dəyməz, dəyməz bir də!***

“Sultan Şəhid” mini poemasını Elnur Şəhid Sultan İbrahimovun dipdiri xatirəsinə həsr edir və *“Ölümü öldürdün o gün, Gələcəyin bətninə eşq toxumu əkdin! Eşq nə demək, Səndən öyrənəcək, Gələcək, Şəhidim! Ölümləri öldürməkdi eşq. Özünü qurban verməkdi eşq. Özünü qurban vermək, Əslində özünə qiymətdi. Dünyanı eşqdir, Bu qədər* çirkablar içində duru saxlayıb. O eşq ki, şəhid adı yazılıb baş daşının taleyində. O eşq ki, Anaların göz yaşının taleyində İşım-işım işıq saçır, “Vətən sağ olsun!”nidası. Sən də Vətən sağ olsun dedin, Getdin, dönmədin! Eh,nə danışıram axı? Sən elə özün boyda döndün elə, Niyyətinə, Baxışlar qurban kəsildi.

*Naxçıvan, Qarabağ, Şəki, Lənkəran, Bir də ki, məmləkətdəki bütün sevdalılar, O günü Vətən ruhuna qoşulub Şəhadət yolçuluğuna Yoldaş olmağa Salyana gəldi!”* deyərək Sultan İbrahimovun timsalında Vətəni öləsiyə sevmək və uğrunda şəhid olmaq-intiharı belə intihar etmək, ölümü belə öldürmək dərsini keçdi Vətəni sevənlərə və Vətəndə şah kimi yaşayıb onun bütün nemətlərindən, imtiyazlarından faydalanan, lakin halına yanmayanlara, dərdinə qalmayanlara!..

*“Biz sadəcə bu isti xatirələri dinləyib, o əsgərlərin danışdıqlarına qulaq asıb kövrəlirik, başqa heç nə... ədəbiyyat bu sərhədi vurub keçməlidir, özünü həmin yaraların içinə atmalı və bizə hər şeyi o şəhid olmuş, yaralanıb, qolunu-qıçını, gözlərini itirmiş əsgər kimi danışmalıdır... (C.Yusifli)”* Yalnız bu zaman müharibə ədəbiyyatı, anım ədəbiyyatı, simvol və rəmzlər ədəbiyyatı kimi qeyd edilən söz sənəti öz gerçək sözünü deyə biləcək... Məncə,Elnur son çağlarda müharibə və anım ədəbiyyatının ən güclü yaradıcılarındandır.

Bu tendensiya “Bütün yollar Şuşaya aparır” poemasında da qabarıqlaşır. Əsərdə azad Şuşada düzənlənən Kitab sərgisi, burada sərgilənən kitablar, onların müəllifləri-yazarlar haqqında şairin poetik düşüncələrini həyəcansız oxumaq mümkünsüzdür... *“Hər kitabın üzündən Vətən eşqi yağır”, “Mənim “Hadrut fatehim” Mənə əl edir”, Sərgidə bir-bir şairlər ürəklərini Şuşaya açırlar”, “Səslər oyadır qayaların yaddaşını, Səslər oynadır torpağın yaddaşını”, “Elşən Əzimin misraları, Lövhə asır gözlərimiz önündə. Şuşada hər damı uçulmuş evdə Ağac bitib, Sanki Ağaclar tək qoymaq istəməyib 28 il yalqız qalan Şuşamızı. Bugünkü ehtişamımızı Yaşadıb dünəndə bu ağaclar. Bu dünyada hərənin bəxtinə düşən bir ağac var! Palıd, Çinar, Vələs, Söyüd ağacı... Ən barlı ağacdır Vicdanda bitən Öyüd ağacı!”* kimi misraların məna yükünü ağırlaşdıran metaforalar,

təşbeh və bənzətmələr ruhu oxşayır. Ən önəmlisi, Elnurun bu poemada və digər əsərlərində yaratdığı Ağac obrazı yaddaşlarda dərin iz buraxır. Axı, ağac həyatın-yaşamın rəmzidir!.. Ancaq Elnurun yaratdığı Ağac şəhid qanından göyərən eşq ağacıdır!..

***Səni ağ günə çıxaranların,***
***Adına andla baş qoyanların,***

***Qanından göyərən eşq ağacısan!***
***Kölgəndə dincəlir,***
***Səni çiynində daşıyanlar!***
***Kölgəndə sərinlənir,***
***Bayrağını enməz edən ruhlar!***

"XXI əsr Azərbaycanı, Vətən müharibəsi və müasir Qarabağ zəruri fəaliyyətlərin kompleksi kimi məhz İdeyadır və bu ideya Azərbaycan türkünün milli kimliyini, Azərbaycan ordusunun necə böyük gücə və iradəyə sahib olduğunu bütün dünyada tanıtdı, Azərbaycan varlığını tarixin, dünyanın gündəminə çıxardı..."

Elnurun şeir və poemalarında da bu ideya çağdaş Azərbaycan ədəbiyyatında milli özünüdərkin aparıcı tendensiyası kimi əks olunur.

Dünya hərb sənəti tarixində analoqu olmayan, hər kəsi bu gün də heyrətdə qoyan 44 günlük

Vətən müharibəsi və onun tarixinə qızıl hərflərlə yazılan əlbəyaxa Şuşa döyüşü bu möcüzə şəhərin eşqinə təşnə olan, xalqla dövlətin birliyi, anaların bu savaş zamanı ordunun və Vətənin şərəfini necə qoruması Elnurun da qələmində əbədiləşərək ədəbiyyat tariximizə öz möhürünü vurdu...

**Esmira FUAD**
*Filologiya elmləri doktoru*

# PROLOQ

Ey Şəhid oğlu Şəhid, bil ki, müqəddəs bu Vətən,
Al qanınla yuyulub oldu Vətən torpaq ikən!
O kəfən eylədiyin bayrağın üstündəki al,
Gecələr nur ələyər qəbrinin üstə o hilal!
Tabutu yurd olanın torpağı cənnət bitirər,
Bir şəhid sevdası göydən də şəfaət gətirər.
O şəhid sevdasının zəvvarı olmaq da nə xoş?
O şəhid sevdasının fikrinə dalmaq da nə xoş!
O uca enməz olan sevda ki, haqqa ucalır,
Elçisi müjdə verən sahibi-hikmət ucadır.
Ey Şəhid oğlu Şəhid, bax sənə durduqca Vətən
Bir vəfa borcu ödər son anacan, son günəcən!
Sənin eşqindir ümid, təşnəyə səhrada sudur,
Şəhid olmaq ki ölümsüzlüyü ilk arzusudur.
Ey Şəhid oğlu Şəhid, cismi diri, ruhu gülər,
Səni duymaz əbədi ruhu diriykən ölülər.
Torpağın ətri kimi ruhunun ətri boy atır,
Hər keçən gün səni mənsiz neçə məndə oyadır.
Baxıb o daş üzünə, tarixi yaddaş üzünə
Baxıram həm də bəsirətlə o yurddaş üzünə.
-Əməli sağdısa cismin elə ismi diridir,
Ey Şəhid oğlu,məzarın bizə bir and yeridir!
Sən Vətən andı içib andına sadiqliyini,
Sübut etdin zaman əfsanəsi gerçəkliyini.

Yazdı öz  qanı ilə gör nə azadlıq əsəri,
Qəhrəman bir taborun möhtəşəm əfsanələri!
Sübhanımla Kamilim, Şəhriyarımla Camalım,
Hər biri sevgi yuxum,bir də yenilməz  amalım!
Ramiq, Elyar, Həmidim, Xəyyam ilə Tərzanım
Bir azadlıq çiçəyim, onlar ümidim, gümanım!
İlkinim, Beyrəyim, Elton, Kərimim haqq mizanı,
Qanıdır ki, Vətənin gəldi cana bir də canı!

# Zəfər çalanlar

Ali Baş Komandanın,
Əsgəriyik, əsgəri!
Qəlbimizdi qibləmiz,
Gözümüz eşq səngəri!

Ruhumuz ona bağlı,
Sevgi varlıq mayası.
Səhər danı qızardır,
Eşqimizin həyası!

Ruhumuz göyü bəzər,
Dünyamız bir dünyadır.
Oğuz, Qıpçaq və Xəzər,
Yol Qızıl Almayadır!

Səsi titrədər ərşi,
Addımı ərzə qüvvət.
Dünya Vətən eşqinə
Yurdum, elədi heyrət!

Düşmənlərinin xofu,
Çıxmaz ki canlarından.
Qarabağ savaşında,
Zəfər yazan Komandan!

Yurduma uzanmışdı,
Kəsdin kökdən o əli!
Sənə müzəffər ölkəm,
Dünya "əhsən",- deməli!

Düz otuz il idi ki,
Yağı yağmalayırdı.
Qarabağ utancından,
Yurd qara bağlayırdı.

Şuşada şüşədəki,
Düşmənimin div canı.
Otuz il ağlar qoydu,
Anam Azərbaycanı!

Atəşkəs də kəsmədi,
Düşmənin bəd niyyətin!
Kəsdi oğullarımız,
Allah qəbul eləsin!

Hər gün yurda hücumda
Sivillər öldürüldü.
Beşiyində süd içən
Tifillər öldürüldü.

Düşmən baxmırdı geri,
Unutmuşdu dünəni.
Qonaq gəldiyi yeri,
Sanırdı öz məskəni!

Torpaq güllələnirdi,
Vətən bağrı qan idi.
Düşmən utanmırdı ki,
Utanan zaman idi!

Yağıya dur deməyə
Vətən deyən oğullar,
Yollandılar cəbhəyə-
Vətən-Vətən oğullar!

Düşmənə  verdi dərsi
İgid oğullarımız.
Bir əfsanə yazdılar,
Oxuyuruq hamımız.

Ali Baş Komandanın,
Vur əmriylə vurdular.
Füzulidən yol aldı
Şuşayacan ordular.

O gün ki Baş Komandan,
Vur dedi güldü ruhlar.
Göylərdən endi yerə,
Vətənə gəldi ruhlar.

Əfsanəvi tabor da,
Yazdı öz əfsanəsin!
Könül duyduqca bunu,
Necə əhsən deməsin?!

13 əfsanə vardı,
Yoxkən vardır, yenə var!
Köçüb sevən qəlblərə,
Vətən adıyla yaşar.

Onlar Baş Komandanın,
Vur deyən yumruğuydu.
Onlar düşmən qəlbində,
Dəhşətli omruq oydu.

O omruqdan üşüyür,
Düşmən döyüşdən sonra.
Türkün düşmənlərinə,
Bir-bir gələcək sıra.

Ali Baş Komandanın,
Fəxr etdiyi oğullar.
Bu gün bir eşqə dönüb,
Hər sevən qəlbdə yaşar.

Danışır şəkilləri -
Dipdiri, daşdan baxır.
Məzarları and yeri,
Daş üstə zaman axır.

# 13 Əfsanə

Vətən yaralarını bağlamağa
Oğul gərək!
Vətən yaralarına məlhəm olmağa,
Oğul gərək!
Gerçək
Qurban nədir dərk edərək
Gedə.
İçini çölünə səfərbər edə
Və
Bitə.
Bitə deyəndə ki son olmaya
Bitmək həm də başlanğıcdı.
Bəzən səhra ürəklərdə
Ha eləyirsən
Sevda ağacı bitmir.
Bax bu bitmək gərək
Bu bitməklə göyərəcək
Kölgəsində sərinlənə biləcək nə varsa.
Necə ki
2020 – ci il
27 Sentyabrda
Qopdu xalqın içindəki tufan
“Vur!”-dedi Komandan.
28 illik işğal silindi
Torpağın qanı qurumamış alnından.

Yurddaş o gün bir də özünə endi.
O gün su dilində danışdı
Sevən boyunlara sarılan qollar.
Qu dilində nəğmə dedi.
Səsləndi Qarabağdan gələn yollar:
“Oğul, Anan gözləyir!”
Oğullar yollandılar...
Oğullar yollandılar
Oğullar deyirəm hər biri bir qaya.
Əfsanələri yayıldı dünyaya.
O oğullar ki
Vətən eşqinə qurban verdi özünü.
Mənasını bir az da müqəddəsləşdirdi
Qurban sözünün.
O gün dərk elədi,
Baxan,
Görən.
Anladı bir nəfər kimi hamı:
Vətən-
Torpağa qan qatışanda Vətən olur.
Qanlarla yoğrulan azadlığın
Mayası sevgidən olur.
27 Sentyabr
2020 – ci il
Dönüş nöqtəsi
Eşqin diktəsi
Komandanın səsi.

Zirvəyə qalxdı qəti
Xalqın iradəsi,
Vətən niyyəti!
Birləşdi bütün barmaqlar
Bir əldə düyünləndi,
Enməmək üçün qalxdı zərbəsi Azərbaycanın!
Əks-hücum əmri səsləndi,
Gül açdı o gün tumurcuqları
Vətən sevdasının!
Əks-hücuma keçdi ordu,
Cəbhə boyu yurdu
Təmizlədi işğaldan.
Bu döyüşdə
052
Elə hünər göstərdi ki...
Ha yaz, şair
Acizdir qələm.
İnanmaz gözüylə görməyən.
Döyüşün ilk günü,
Qaraxanbəyli səmtinə dikildi gözlər
Düşmən dörd gözlə
Pusquda gözləyirdi.
XTQ
1-ci taborun 13 əfsanəsi
Yolu açırdı Milli Orduya,
Yolu qarğalardan təmizləyirdi.
29 sentyabr

Qaraxanbəylidə
Düşmən ağ bayraq qaldırdı:
-Təslimləm - deyə.
Bizim düşməndə kişilik hardaydı axı?
Tabor komandiri
Kamil Şirinov aman verdi diləyənə.
Ağ bayraq qaldıran düşmən
Hiyləyə əl atdı.
Ağ bayraq dalında
Gülləylə qarşıladı oğullarımızı.
Bu döyüşdə yara aldı
Seyidbala adlı igidi Vətənin.
Kamil komandir qayğısına bələdi
Özünü sipər elədi
Yerini dəyişdi yaralı aslanın.
Arxaya çəkdi onu.
Güllə yağışının altında
Özünü çətirtək açmışdı
Başı üstə yarasından sevgi axan Seyidbalanın!
Bu cəsur komandir
Ölüm nədir?
Bilməzdi!
Qorxusuzluğuyla yenmişdi qorxunu
O yenilməzdi!
Ancaq nə qədər yenilməz olsan da,
Hərbin quzğun caynağında sevgi çapalayır.
Müharibə qanunlarının hər bəndi

Ayrılıq yazır.
Güllələr ağzından çıxan alovun tüstüsündə
Həyat yolunu azır.
Lənətə gəlmiş müharibə
Nişanlı qızları barmaqlarından yıxır
Özünə qayıtmağa qoymur gözləri yol çəkənləri
Analar ürəklərində:
"Mütləq bir gün qayıdacaq"-,deyə
Gözləyirlər gedənləri!
Gedənlər...
Döyüşün qızğın yerində
Snayper
Kamili nişan almışdı.
Və qəfil bir atəş
Düşmənin əl-qolunu bağlayan
Bir ömrü susdurmaq üçün açılmışdı.
Neçə döyüşdə ölümə qan udduran
Həyatı güldürən ömür
Bir kor gülləylə sönür.
O ömür ki sevgisində ayrılıq ölür,
Sevdası əbədi gülür.
Əfsanəvi taborun əfsanələri
Yaman əsəbiydi bu itkiyə görə.
Göz görə-görə,
Heç kim məlhəm ola bilmirdi,
Bir vaxtlar onları canı bahasına qoruyan,
Sarı Komandirə!

Bir yandan da düşmənə
Əlavə qüvvə gəlmişdi.
Düşmən səpin vaxtı dənə gələn qarğa kimi
Qaraxanbəylidə cəmlənmişdi.
4 gün gecə-gündüz döyüş
Müharibənin taleyində ilk dönüş
1 Oktyabr
Yarıldı mühasirə.
Düşmən təslim edildi.
Təmizlənmiş ərazilər,
Əsir düşmənlər
Təhvil verildi
Milli Ordudan gələn əsgərlərə.
1 Oktyabr Cəbrayılın azadlığına
Yürüdü Əfsanə tabor.
Addımında düşmənə nifrət,
Vətənə məhəbbət marşı.
İşğalda qalmamalıydı yurdun bir qarışı!
4 Oktyabradək çarpışdı,vuruşdu
Qanlar axdı
Baxışlar güllələrlə toqquşdu
Şimşək oynadı gözlərdə
Od ələndi yerə.
Vətən eşqindən ildırım düşdü
Vətən deyən qəlblərə!
Oğullar əfsanə yazdılar
4 Oktyabrda Cəbrayılı azad elədilər.

Düşmənə türkün kimliyini göstərdilər.
Cəbrayıl uğrunda
İki məzar boyu böyüdü Vətən!
İki igid boyu kiçildi
Əfsanəvi tabor.
İki igid adı seyrəldi cərgədən.
Zülfüqarov İlkin,
Fezullayev Beyrək
Ruhunuz qarşısında baş əyirəm!
Bu Vətən oğullar
Cəbrayılda şəhadətə yüksəldilər.
Vətəni yüksəltdilər!
Onlar Qartal cüssəli yurdun,
Beynindən ürəyinəcən yol çəkdilər-
Yenilməzlik yolu!
Hər yolun başlanğıcında itki olur,
Bu itkilərlə qazanılır sonun sonrası...
Hərb elə yolun başlanğıcıdı
Sonda sülh doğsa da,
Hər döyüş bir insan itkisidi
Müharibə yerin yetimliyi
Göylərin səksəkəsidi.
Anası ölmüş yer
Bu qədər yükü necə götürür?
Oğullar seyrəldi dəstədən,
Onlar torpağı Vətən edən
Bədən!

1-ci tabor
Ən güclü Vətən nəğməsin yazdı.
Bu nəğmənin hər sözü müqəddəsdi
Hər hərfi qüsul suyuna bərabər qandı!
Şəhidlərin çiyni üstə qalxdı bu torpaq
Xəyalımda insan dənizi var,
Dalğaların qoynunda tabut dalğa
Gedir eşqinin sahilinə - haqqa!
Cəbrayılın azadlığından sonra
Sıra
Hadrut!
5 Oktyabr sübh şəfəqini soyunmamış
Əfsanələr yuxunu soyundular.
Andlarıyla yuyundular.
Ya HAQQ deyib
Yol aldılar Hadruta!
Arazqırağı torpaqları keçdikcə
Düşünürdülər:
Arazın o üzü Vətən,
Bu üzü Vətən!
Doğma ikən
Özünə qərib olan
Bu müqəddəs torpaqlardan
Kimlər keçmədi, görən?
Onlar da keçirdilər
Bu keçid həsrətdən sevgiyə keçid idi.
Bu keçid sabaha ümid idi.

Şəhadət kəlməsi dillərdə,
Öndə, arxada hamı bir nəfər idi
Əsgər-sərkərdə.
Hadrut yaxınlığında,
Qəbiristanlıqda pusqu,
Tabor hiss etdi, susdu.
Dinlədi yaxını, uzağı.
Tələləri məhv etdi
Əfsanə oğullar əfsanələrdəki kimi.
Taborun qrup komandiri Camal,
Girdi düşmənin radiostansiyasına,
Erməni dilində əmr etdi erməni batalyonuna.
Polkovnikə geri çəkil əmrini verdi.
Əmri verənin general olduğunu dedi.
Başqa səmtə yönləndi düşmən.
Hadruta bir güllə sərf etmədən
Belə qədəm qoydu 1-ci tabor.
Bəzən ağlın qarşısında
Atom da aciz qalır.
Düşmən gec anladı yanıldığını.
Onun necə yandığını
Təsəvvür edirəm.
Öz qapısına top vuran futbolçunu
Gözlərim önünə gətirirəm.
Azarkeş söyüşü,
Yaxınların dönüşü...
Düşmən azğınlaşmışdı aldanışına.

Bir – birinin çağırışına
Hay vermişdi qara qarğalar.
Atışma başlandı
Leşlər qatlandı
Düşmən tərəfdən.
Hadrutda bayrağımızın kölgəsində
İlk dəfə belə sərinlənirdi Vətən!
9 Oktyabr azad olundu Hadrut.
Hadrut fatehi kimi düşdü tarixə
Bir ad.
Belə igidlərin varsa,
Unut, hər şeyi unut.
Sıfırdan başla gələcəyini bu gün, həyat!
İgid oğullarımız gətirdi ölümünü ölümün.
O gün
Şuşaya açıldı qapılar.
Hadrut azad edildi,
Komandan efirdən dedi
“Hadrut Qarabağın açarı
Artıq alınıb geri!”
Üzümüzə açıldı dəhliz -
Şuşa qapısı
Allah bu səadəti bizə yaşadanların
Ruhlarını əmanətitək qorusun!
İşğaldan azadlığa
Qovuşduqca torpaqlar,
Azərbaycan

Əsgərdən – generala
Böyükdən – kiçiyə
İnanırdı vüsala.
Hamı könül vermişdi
Vətən adlı sevgiyə.
10 Oktyabr
1-ci tabor
Füzuliyə atdı addımlarını
Yeddi gün vuruşdu,
17 Oktyabr azadlığına qovuşdu
Füzulidə əsir qalmış
Tavanı döşəməsi olan binalar.
Evlərin içində bitən ağaclar,
Sanki yurdundan didərgin düşmüş sakinlərə
təsəlli bitmişdi.
O ağacların kölgəsində neçə ruh nəfəs dərmişdi,
Allah bilir!
Əfsanə oğullar əfsanə yazdılar,
Xilas edildi Şəhid şəhər,
Qazi evlər!
13 Məlikməmməd qarşısında,
Tab gətirə bilməzdi min-min divlər!
17 Oktyabrda Xocavənddən keçdi
1–ci tabor
Laçın dəhlizi nəzarətə alınmalıydı.
Düşmən yurddan qovulmalıydı.
İti qovan kimi qovurdu düşməni oğullar.

Növbəti dayanacaq sevgi adlı dayanacaq idi,
Orda oyanacaq idi
Həyat Vətənçün!
Bitəcəkdi qara qayğıları Qarabağın.
Həmin gün
Qızışdı döyüş.
Ərgünəşə  Günəşi doğanlar
İki gün çarpışdılar
Silahları bitdi,
Sevgiləri ilə vuruşdular,dönmədilər.
Qeyri – bərabərdi qüvvələr.
30-a qarşı 600 nəfər.
Ha biçdilər alaq ömürləri, bitmədi!
Ha kəsdilər calaq ömürləri, yetmədi!
Silah – sursat tükəndi,
Qəlblərindəki Vətən eşqi
Nur verirdi gecələr gözlərinə.
Düşmənə nifrət
Güc verirdi gündüzlər dizlərinə.
Düşmənə qüvvə qüvvə dalınca gəlirdi
Camal  zəkasının çırağıyla
Aydınladırdı zülməti.
Sübhan ürəyinin gücüylə
Qoymurdu bitə tabordakı taqəti.
Elyar Vətənə yar olmağın nə olduğunu
Diktə edirdi o gün zamana.
Elton aşiqliyin

Təkcə insandan -insana
Aid olmadığını qanıyla yazırdı
Sabahın alnına!
Hələ çox aşiqlərə nəsə pıçıldayacaq bu yazı.
Tərzan o gün orada güllələdi,
Oldurdu olmazı!
Tanrım, bu qüdrəti sən verdin
Sevdiyin bəndələrinə.
Düşmən hərlənə bilmədi o gün
Silahları tükənən Vətən oğulların həndəvərinə.
O qanlı döyüşdə Həmid,
Edirdi ümid
Sabahına gecənin.
İnanırdı sağ çıxacaq
Qıracaq inadını müharibənin.
Şəhriyar yoldaşlarına:
- Vətən ana
Biz ölək,
Təki o yaşasın
Borcumuzu canımızla ödəyə bilək ona!
Gərək oğullar,
Ürək oğullar,
Yurdun müvazinəti,
Yıxılan Vətənə dirək oğullar.
Bu donor bədənlər
Əməliyyat masasındakı Vətənə
Belə qan  verdilər.

Sönmüş ocağı
Külündən yenidən közərtdilər.
Azadlığa qovuşdu əsir torpaqlar.
Ərgünəş yüksəkliyində
Bu gün 8 Şəhidin qanıyla
Dan yeri qızarar, Günəş doğar.
Taborun ən şəni
Kərim...
Döyüşdü sonadək
Qan uddurdu düşmənə.
Silahı tükəndi,
Təkləndi...
Düşmən anlamadı aslan təklənəndə
Daha təhlükəli olur.
Kərim son çarəsini
Əl qumbarasından tapdı.
Qumbarasını partlatdı.
Özünü də,
Düşməni də,
Ölümü də
Öldürdü.
O gün
Zaman Qubadlıda
Ərlərin Günəş kimi doğduğunu gördü.
Əfsanəvi tabordan iki nəfər sağ qalmışdı,
Ramiq və Xəyyam.
Bir nəfər də Ayar Abbasov

Hospitalda can çəkişirdi.
Yoldaşların itkisindən
Sarsılsa da bu Vətən oğullar.
İnanırdılar
Ölməyibdi Şəhidlər.
Hardasa onlarladılar.
Döyüşürlər...
Tabor komandiri Xəyyam idi daha
Hədəf bəlliydi
İstiqamət Şuşa!
O Şiş qayalara
Sivri daşlara
Qeyrətini ip edib qalxdı.
Ramiq yanındaydı
Qrup arxasında.
Şuşa döyüşü başlamışdı qayalarda.
Koroğlu nəvələri orda
Aslan kimi döyüşürdü.
Gah silah, gah əlbəyaxa
Qan qusdururdu Xəyyam qrupuyla yağıya.
Yağının anası oturmuşdu ağıya.
Düşmənin minomyot atəşi
Yaraladı Şuşada Xəyyamı.
Ramiq təhvil aldı komandirdən komandanı.
Qrupu çəkdi irəli.
Yaralı Xəyyamı təhlükəsiz yerdə gizlədi.
Nə çəkdi güllələrin altında,
Xəyyamı ordan uzaqlaşdırana qədər?

Döyüşə-döyüşə
Birtəhər
Dostunu uzaqlaşdıra bildi ordan.
O günədək
Zaman
Nə elə qardaşlıq görmüşdü,
Nə döyüş.
O gün yerin anası ölmüş
Torpaqdan qalxan barıt qoxusu, bir də acı tüstü,
Müharibənin gözləri oyulmuş büstüydü,büstü.
Ramiq düşmənin canına oxuyurdu.
Güllələrdən əcəl köynəyi toxuyurdu,
Dığaya.
Taboru aparırdı irəli.
İrəli əmri yaraşırdı Komandoya.
Qəfil düşmən atəşindən yara aldı o da.
Şuşa azadlığına qovuşdu,
O da Şəhadətə o gün!
Onun ölüm xəbəri Xəyyam üçün
Ən ağır xəbərdi.
Qaldıra bilmədi yaralı Xəyyam
Dost ölümünü
Ö sözün ilk hərfini.
Tapşırdı Tanrıya canını
Şuşa azadlığını qazandı,
Xəyyam da Şəhadətini!
O gün Azərbaycan adı
Dünyaya yayıldı.

Müzəffər Komandanın
“Əziz Şuşa,sən azadsan”
Nidasını səmada Şəhid ruhları alqışladı.
Bütün Azərbaycan
Sevgi adlı dünyasıyla
Qucaqladı Vətəni.
İki gün sonra
Düşmən sarsıdıcı sülhə boyun əydi.
İşğal kəlməsi silinməliydi
Yurdun alnından!
Silindi də.
İndi torpağın bağrında
Məzar-məzar dikələn Vətənlər
Hər birinizin məzar daşından
Sevgi gülər!
O məzar daşlarınız Vətən daşı!
Sizdən başlayır
Gerçək tarixi azadlığın!
Şəhidlər- ölməzliyin rəmzi!
Şəhidlər müqədəsliyin özü!
Şəhidi olmayan Vətən
Vətən deyil,düzü!
O torpağın üstünə bir damla Şəhid qanı damıbsa
Ora Kəbətək müqəddəsdir!
Şəhid olmaq əbədiyyət demək.
Əbədiyyət Tanrıya aiddi.
Şəhid Tanrı hüzurunda canlı şahiddi.

Onlar ölmədi,
Onlar sağdılar.
İdrakımız yetmir,
Ya da bəsirətimiz bağlı.
Bunlardan biri yetərli olsaydı
Şəhidləri görərdik.
Biz Şəhid qanlarıyla Vətən adlı ağacı göyərtdik.
O ağacın budaqlarına bax,
Bir budağı,Lerik Lənkəran
Bir budağı Bakı, Oğuz,
Bir budağı Naxçıvan,
Bir budağı Şəki,Ağdam,
Bir budağı Quba,
Bir budağı Ucar,
Bir budağı da Qarabağ!
Hər budağı bir kök,
Hər budağı eşq adlı Paytaxt!
Bir budağı Neftçala,
Bir budağı Salyan.
Bu ağac
Hər il çiçəkləyəcək,
Hər il bar verəcək inan.
Bu ağacın kölgəsində
Hər şəhid məzarı rahat uyuyacaq,
Rahat uyuyun, Vətəni var edənlər!
Rahat uyuyun sağ ikən  uyumaq nədir bilməyənlər.

Biz
Hər ilin astanasında
Mütləq sizinlə görüşəcəyik.
Yoxluğunuzda varlığınızı yaşatdınız,
Elə bu möcüzəyə görə
Tanrıya şükr edəcəyik!
Sabah bu azad Vətən
Hər dərslikdən
Sizin sevdanızı oxuyacaq.
Onlar da sabaha ötürəcək
Bu sevgini.
Siz hərənizə bir sevgi əkdiniz,
Gələcəyin bətnini
Eşqlə yüklədiniz.
Sabah mütləq bu eşq dünyaya göz açacaq.
Biz olmasaq da,
Bizsiz də
Vətən yaşayacaq!
Şəhid adı yaşayacaq!

# Oğulluq haqqı

*"Qarabağ" ordenli Şəhid Kamil Şirinovun*
*əziz xatirəsinə sayğılarla...*

Kamil yaratdı Tanrı,
Kamil səni, Şəhidim!
Vətən səni çox sevdi,
Sən Vətəni, Şəhidim?

Sənin oğul sevdana,
Ana sevgisi çatmaz.
Şəhidsiz yurd torpağı,
Bir qarış da boy atmaz.

Sən qanınla can verdin,
Bu müqəddəs Vətənə.
Qəbrin üstə əyilib,
Vətən deyirəm sənə.

Torpağı Vətən edən,
Ruhuna baş əyirəm.
Vətən səndən başlanır,
Bilsin hər kəs, deyirəm.

Torpağa axan qanın,
Əzəməti bu yurdun.
Qanınla bu torpağa,
Paklıq möhürü vurdun.

İyirmi doqquz payız,
İyirmi doqquz bahar.
İyirmi doqquz yaşlı
Ölüb yaşayanım var!

Ey eşqə qanad verib,
Həsrətə dağ çəkənim.
Ey həyatı yaşadıb,
Ölümü öldürənim.

Vətən bu günə görə,
Sənə borcludur sənə.
Əsil oğulluq etdin,
Sən anamız Vətənə.

Özün yox ikən izin-
Hamımızdan öndədi.
Yer başına fırlanır,
Göy, eşqinə bəndədi.

Hər sökülən dan eşqin -
Yaşamaq ehtirası.
Şəhadətin mübarək,
Şəhidim, yurd sevdası!

Şəhidlik cənnət adlı,
Əbədi bir dünyadı.
Haqq qatında əzizdi,
Kamil Şirinov adı!

# Qeyrəti Zülfüqarım

*"Vətən uğrunda" medalı ilə təltif olunmuş Şəhid Zülfüqarov İlkinin sayğıdəyər xatirəsinə*

Ağsudan-Cəbrayıla
Qanınla yazdın Vətən.
Sən getdiyin yollara,
Qurban olum, oğul, mən!

31 il yaşadın,
Eraya sığmaz ömrün.
Canını qurban verib,
Kəsdin kökünü zülmün.

Vətənin alnındakı,
İşğal adlı ləkəni.
Qanınla sildin, oğul
Vətən unutmaz səni!

Adıntək ilkin oldun,
Qeyrətin Zülfüqardı.
Bilirdin döyüşündə,
Əsl haqq işi vardı.

Cəbrayılda Bayrağı,
Səndin dalğalandıran.
Yağının yağmasına,
Qeyrətiylə od vuran.

Tariximin ağ üzü,
Yurdun şərəf, şanısan.
Bu gün Şəhid sevdanla,
Sən bir eşq dastanısan.

Qanından yurd yoğurub,
Can bahası öc aldın!
Yar Vətənə inandın,
İnancınla ucaldın!

İnancına söykənib,
Dalğalanır bayrağım!
Qanınla cücəribdi,
Azadlığı torpağın!

Şəhadət karvanında,
Haqqa zəvvarım mənim!
Tariximə dünəndən,
Qiymətli varım mənim!

Zamana sübut etdin,
Həyat ölümdən doğar.
Bu gün hər sevən qəlbdə,
İlkin Zülfüqarov var.

# Vətənə sevdalandı

*“Vətən uğrunda” medalı ilə təltif olunmuş Şəhid Fezullayev Beyrəyin əziz xatirəsinə...*

Türklərin göz açdığı,
Dədəm Qorqudun eli -
Oğuzda göz açmışdın
Dünyaya eşqin dili.

Adını Beyrək qoyan,
Necə uzaqgörənmiş.
Sənin o Beyrək adın,
Dədəm Qorqud verənmiş.

Sən düşmənini basdın,
Bamsı Beyrəyim mənim.
Oğuzdan Cəbrayıla,
Körpüm, dirəyim mənim!

Dörd ay nişanlı qaldın,
Şəhadət şəhdin içdin.
Vətən eşqiylə daim,
Nişanlanmağı seçdin.

Məzarın bir nişandır,
Göyü yerə bağlayıb.
Torpağın üstün elə,
Torpaq altı saxlayıb.

Vətən göyü ruhuna
Söykənib deyə çökmür.
Torpaq altı cismindən
Güc alır deyə çökmür!

İyirmi üç yaşında,
İş gördün bir əsrlik.
Sübut etdin dünyaya,
Türkə yaddır əsirlik.

Əsarətdən torpağı,
Azad edən Şəhidim.
Ey üçrəngli bayrağı,
Ruhuna don geyənim.

Sən Oğuzda Oğuzun,
Varlığının özüsən.
Sən qara bəxtli yurdun,
Günəşli gündüzüsən.

Sən Vətən ürəyində,
Elə uca taxt qurdun!
Ölümünlə qazandın
Gələcəyini yurdun!

Alp ürəkli, eşq dilli,
Bamsı Beyrəyim mənim!
Yurdun müvazinəti,
Vətən dirəyim mənim!

# Hadrut fatehi

*Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun əziz xatirəsinə...*

Qarabağdan əsən yel,
Adını salamlayır.
Külli-cahanda göy, yer,
Adını salamlayır.

Neftçaladan-Hadruta
Xəzritək əsən külək.
Tanrıdanmı güc aldın,
Nəymiş səndəki ürək?

Zəkana çatmaz zəka,
Gücünə tay güc hanı?
Anandan əziz sevdin,
Anam Azərbaycanı!

Getdin yurdun uğruna,
Bu gediş nə gedişdi?
Şəhid sözündə hər hərf,
Oyanış, titrəyişdi.

Dünyanın vicdanını,
Silkələyər baş daşın!
Ruhun ruhların eşqi,
Tarixisən yaddaşın.

Yoxluğunda varlığın,
Yaşadan ad mərhəba.
Vətəni Camal adı,
Salamlayır hər sabah.

Dünənində qazandın,
Hər sabahın sabahın.
O pak ruhunla daim,
Əzizisən Allahın!

Məqamın elə uca,
Qalxa bilmir söz ora.
Sevgili canan Vətən,
Borcludur səntək yara.

Nəfəsin bürküdə də,
Oldu yurda sübh mehi.
Yeni adın mübarək,
Şəhid-Hadrut fatehi!

Sən sübut elədin ki,
Yenilməzdir amalın.
Yurd qisasını aldın,
Rahat uyu, Camalım!

# Adı Vətən

*Vətən Müharibəsi Qəhrəmanı Sübhan Cəbrayılovun əziz xatirəsinə sayğılarla...*

Eşqin kimi müqəddəs,
Sübh həyatıdır adın!
Adın kimi qəhrəman,
Sübh həyatı yaşadın.

Erməni dığasının
Ağlar qoydun anasın.
Sən öz qanınla yazdın,
Eşq sözünün mənasın.

Cəbrayılda döyüşdə,
Üç gün ac-suzuz qaldın.
İnam güc verdi sənə,
Haqlı zəfəri çaldın.

Düşmən polkovnikini,
Əsir götürən igid!
Gələcəyə eşqiylə
Bir sirr ötürən igid!

Bu sirr güntək aşikar,
Eşqdir əzəl şifrəsi.
Aşiqlərə açıqdır,
Tanrının eşq süfrəsi.

Bu eşqin süfrəsində,
Nə qədər ac var,Allah?!
Şəhidə dərgahında
Qapılar açar Allah!

Sən bu yurdun qeyrəti,
Sən ölmədin, Sübhanım!
Ölümünlə doğuldu,
Günü Azərbaycanın.

Külündən alışdırıb,
Közərtdin bu ocağı.
Sənə Vətənim açıb,
İsti Ana qucağı.

Azərbaycan açıbdı,
O doğma ada qucaq!
Yaxından yaxın olub,
Sən sağkən sənə uzaq!

Ey vətən torpağını,
Məzarıyla böyüdən,
Bir vaxt Sübhandı adın,
İndi Vətəndir, Vətən!

# Sevginin gerçək üzü

*Vətən Müharibəsi Qəhrəmanı Elyar Vəliyevin*
*əziz xatirəsinə sayğılarla...*

Adın elə yar idi,
Özün elə yar oldun.
Ana Vətən eşqinə,
Nə gözəl dildar oldun?!

Qobustandan-Laçına,
Addım səsin duyulur.
O səsə hər ürəkdə,
Bir abidə qoyulur.

Keçdiyin hər yol,cığır,
Qanla cana gəlibdi.
Sənin şəhadətinlə
Bayrağım yüksəlibdi.

Sən yurdumun haqq səsi
Yoxluğunda da varsan.
Ey Tanrı möcüzəsi,
Qışda da tər baharsan.

Adını kim qoymuşdu?
Kim düşünmüşdü axı?
Yox, Allahdan gəlmişdi
Bu adın, Allah haqqı!

Yar nə demək, yar nədir?
Qanınla yazdın bunu.
Göstərdin aşiqliyin,
Həqiqət olduğunu.

Qan qusdurdun düşmənə,
Ruhunla hər döyüşdə.
Ömür çox tez ötüşdü,
Gecə-səhər döyüşdə.

Özündən sonra yurdda,
Beş şux fidan böyüyür.
Canınla cana gələn,
Azərbaycan böyüyür.

Elimin qəhrəmanı,
Adı dastan Şəhidim.
Elə baxma, nə olar,
Cansız daşdan, Şəhidim!

Sən baxdığın o daşın,
Keşikçisi Bayrağım.
Üzünə qurban olum,
Sən yatdığın torpağın.

Sən sübut elədin ki,
Vətən varsa biz varıq.
Canda bu can durduqca
Biz sənə borclularıq.

Qubadlıyacan gedən,
Ölümə şan yaşadan.
Düşmənini məhv edən,
Azərbaycan yaşadan -

Oğulların haqqıdır,
Əsil Vətəndaş sözü.
Şəhidlərdir, Şəhidlər
Sevginin gerçək üzü!

# Ulu ruh

*“Qarabağ”ordenli Şəhid Şəhriyar Quliyevin dipdiri xatirəsinə sayğılarla...*

İki yaşın var idi,
Düşmən evlər yıxanda.
Qaçqın kimi çıxmışdın,
Sən Ağdamdan çıxanda.

Böyüdün yurd eşqiylə,
İçdin sədaqət andı.
Qanınla yazdın oğul:
Ucadır Vətən adı.

Bu Vətən savaşında,
Çarpışdın azadlıqçün.
Müharibə bitsə də,
Tarix danışır hər gün.

Hünərinlə izlədin
Ölümün ölümünü.
Can bahasına bitdi,
Ağdamın qara günü.

Cəbrayıl, Füzulidə
Ayaq izin yol açır.
Söykəndiyin daşlarda,
Vətən eşqin gül açır.

Hər qayası bir tarix,
Qarabağ torpağında.
Şəhriyar yazılıbdır,
Tariximin alnında.

150 erməni
Dizə gətirən oğul.
Cismən köçsən də, ruhən -
Varsan, hər zaman var ol!

Tarixin alnındakı,
Ləkəni təmizlədin.
Qəlbində tək bir eşqi -
Vətəni əzizlədin.

Sevdin, sevginlə çatdı
Yurd torpağı kamına.
Qanınla güc verdin sən
Yurdun istiqbalına.

Sən bu yurdun cəsarət,
Yenilməzlik rəmzisən.
Atillanın zəkası,
Mete xanın əzmisən.

Səndən başlanır Vətən,
Səndən, Şəhid Şəhriyar!
Ora Vətəndir, Vətən
Harda şəhid qəbri var!

Ölümlərin sultanı
Şəhadətdir, şəhadət.
Bir damla şəhid qanı,
Bir ömürlük ibadət.

Tanrının dərgahında,
Ey uca, ey ulu ruh.
Söz səndən şəfa alır,
Ey şəfaət yolu ruh.

# Sədaqətim şərəfimdir

*“Azərbaycan Bayrağı” ordenli şəhid leytenant*
*Elton Qənbərlinin əziz xatirəsinə sayğılarla...*

Ələklidə doğuldun,
Düşmənləri ələdin.
Ölümünlə olumu,
Əbədi var elədin.

İyirmi üç il ömür,
Boyuna uzun oldu.
Sən həyat məktəbindən,
Şərəfli məzun oldun.

Şərurdan-Qarabağa,
Eşq nəğməsi oxudun.
Sənin ölümün,şəhid,
Eşq adlı bir yuxudu!

Oyaq ikən yatanlar,
Anlaya bilməz bunu.
Səsi batan nə bilər,
Səsin nə olduğunu?

Sən elə səssən, elə -
Yayılırsan günbəgün.
Zaman sevgidən yonub,
Eşq heykəli səninçün!

Yurdumun qeyrət kanı,
Nur çöhrəli Eltonum.
Sən ey cənnət ətirlim,
Sonrasısan hər sonun.

Səndən başlayır Vətən,
Səndən doğur azadlıq.
Qanınla azadlığa -
Bəxtiyarlığa çatdıq.

Füzuli, Cəbrayılda
Hadrutda izin yaşar.
Cismən yoxsan, hər qəlbdə
Sevgili sözün yaşar.

Qubadlıda düşmənin,
Qırdın, qırdın belini.
Ölümünlə çıxardın,
Ağ günə öz elini.

"Sədaqətim şərəfim" -
Deyib girdin döyüşə.
Tanrı mübarək dedi,
Bu xoş, mübarək işə.

Ey qanı qüslu olan,
Bayraq kəfəni, Şəhid!
Sənin eşqinlə yaşar,
Neçə məndə mən, Şəhid!

Sən zamanın yoldaşı,
Adın dastan hər yerdə.
Vətən eşqindən doğur,
Yurd eşqli bu şeir də!

Adın adlardan uca,
Ölümün olum demək!
Səninlə başlayırsa,
Bitməz bu yolum, demək!

# Vətən ümidi

*"Qarabağ" ordenli Şəhid Həmid Abbasbəylinin sayğıdəyər ruhuna ehtiramla...*

Bu dünyada oğul vardı,
Onun adı Həmidiydi.
Tanıdığı tanışların,
Vətənin son ümidiydi.

O, Bakıda doğulmuşdu,
O, Şəkidə böyümüşdü.
O, Şəki, Bakı üçün yox,
Bütöv Vətənçün döyüşdü.

Cəbrayılı azad etdi,
Füzuliyə sancdı bayraq.
Ruhuna min əhsən dedi,
Qanla diriltdiyi torpaq.

Hadrutda yara alsa da,
Durmadı döyüşdə geri.
Qoca tarix çox az görüb,
Ruhu belə şanlı əri.

Hər yeni gün yeni zəfər,
Qazandı Vətən Həmidim!
Şuşayacan Zəfər yolu
Qəzandı, Vətən Həmidim!

Ərgünəşdə ərliyini,
Sübut etdin yerə göyə.
Sən ömrü tez dəyişdin ki,
Ana Yurd yaşasın deyə.

Özün getdin,izin qaldı,
O izə bax, yol oldu,yol.
Ta əzəldən-əbədəcən,
Vətən gedər, deyər: “sağ ol!”

Adın dilimdə ucalar,
Haqqa şükür sən, Həmidim!
Neçə məndə mənin yaşar,
Məndə də mənsən, Həmidim!

Sənlə keçir gələcəyə,
Dünənin bu günü sənsən!
Bu gündən -sabaha zaman,
Keçər eşqin körpüsündən!

Bir eşq körpüsüdür Şəhid,
İki dünya sahilində.
Yeri göyə qanla bağlar,
Şəhid olduğu ilk gündən.

Ümidi doğmuşdu Anan,
Səni nurlu sabahına.
Sənsə son ümidi oldun,
Anamızın Anasına!

Sən sübut etdin Ananı -
Anandan çox sevdiyini.
Özünü qurban verməkdi,
Aşiqliyin ilk düyünü.

Aşiqlər ölməz Şəhidim!
Dönmüsən eşqin daşına.
Yer, Göy eşqindən güc alıb,
Dönür daşının başına.

# İgid Tərzan

*“Vətən uğrunda” medalı ilə təltif olunmuş Şəhid Haşımov Tərzanın sayğıdəyər ruhuna ehtiramla...*

Sən Vətənin cənubundan,
Qərbinəcən bir yol gəldin.
31 il ömür sürdün,
Eşq abidəsi yüksəldin!

Qəhrəman oğlu adını,
Yazdın əməllə zamana.
Axan hər damla qanınla,
Min-min düşmən batdı qana.

Torpağıma susayanın,
Öldürdün su həvəsini.
İgidliyinlə dağıtdın,
Laçında div məhbəsini.

Cəbrayılda vəhy gətirdin,
Qurtuluş adlı vəhy o gün.
İlk azadlıq müjdəsiydi,
Cəbrayılım Vətən üçün!

Qovmuşdun yurddan düşməni,
Haqqı sahibi almışdı.
Səndəki o cəsarətə,
Düşmən də heyran qalmışdı.

Müharibə o quzğunun,
Caynağında kim can vermir?
Bəlkə, yeganə sözdü ki,
Allaha da salam vermir.

Neçə dəfə yaraladı,
Səni quzğun hərb caynağı.
Sən dağlar oğluydun asan -
Yoruldum deməzdin axı...

Ruhundakı dağ vüqarı,
Qanındakı yurd sevgisi.
Səni coşduran bu idi,
Sevgisizlər necə bilsin?

Füzuliyə də girmişdin
Azadlığı üçün yurdun.
Qarabağda düşmənlərə,
Aşılmaz bir divar oldun.

Hadrutda bir iş gördün ki,
Ünü ərşə çatdı o gün.
Son sözün səs-səs yayıldı-
Dedin: “hər şey Vətən üçün!”

Hər şeyini bu Vətənə
Qurban edib getdiyin gün,
Sən dirilik rəmzi oldun,
İgid Tərzan hamı üçün!

# Ölümün kabusu

*"Azərbaycan Bayrağı"ordenli Şəhid Kərim Əliyevin sayğıdəyər ruhuna ehtiramla...*

Ucarda doğuldu Kərim,
Qorudu yurd ucalığın.
Göstərdi eşqinə necə
Aşiqin qurban olmağın!

Aşiqlər üçün məktəbdi,
Ölüm anın-olum anın!
Bir eşqi daim yaşatdı,
Ölümə kabus olmağın!

Sən nələr etmədin nələr?
Borcun ödənməz heç zaman.
Tarix hələ çox bəhs edər,
Sabaha igid oğlundan.

Füzulidəki mifləri,
Dağıtdın qeyrət gücüylə.
Ölüm sənə neçə dəfə,
Baxdı o heyrət gözüylə.

Cəbrayıldakı hünərin,
Yeddi qat göyədək çatdı.
Göyə onda sübut etdin,
Göy yox, insan yeddi qatdı.

Haqqın mələyi-insanın
İlk, son qatı aşiqlikdi.
İnsan torpağa aşiqdi,
Ruhu göy qısqandı, çəkdi.

Sən elə oğulsan, Kərim!
Adın lütf ilə qoşadı.
Ölümünlə Ərgünəşdə
Ölüm intihar yaşadı!

İyirmi iki baharı,
Elə yaşadın həyatda.
Tarix boyu yaz fəslitək,
Adın yaşar yeddi qatda.

Düşmənə vermədin aman,
Yaralı dostlar qurtuldu.
Mühasirə ölümünlə
Göz qırpımında yox oldu.

Son gülləyəcən vuruşdun,
Sonda bir qumbaran qaldı.
Sonda partlatdın onu da,
Ölümün də canlar aldı.

Hey düşündüm bu ölümü,
Bu yuxumu, gerçəklikmi?
“Vətən sənə canım fəda!”
Budur aşiqliyin himni!

Bu himnin sədası altda,
Fədailər fərəqətdə.
Gələcək bu gün güc alır,
Dünənki o məhəbbətdən.

# Ölüb yaşamaq

*"Vətən uğrunda medalı" ilə təltif olunmuş Şəhid Ramiq Tağıyevin sayğıdəyər ruhuna ithaf...*

Lerikin Kəlvəz kəndində,
Göz açdın qoynuna yurdun.
İyirmi iki il ömrü,
Nahaqqı haqla susdurdun.

Anan südüylə hopdurdu,
Canına yurd sevgisini.
Atan eşqiylə hopdurdu -
Qanına yurd sevgisini.

Böyüdün Vətən andıyla,
Böyütdün Ana Vətəni.
Mənliyindən məhrum etdin,
Sən mənəm, mənəm deyəni.

Can xilas etməkdi işin,
Sən Vətən xilas elədin.
Düşmənə toyu,düyünü -
Qarabağda yas elədin!

Füzulidən-Şuşayacan,
Qanlı döyüş yolu keçdin.
Susayanda su əvəzi
Ana Vətən andı içdin.

Andı mübarək igidim,
Andın gül açır Şuşada.
Adı mübarək Şəhidim,
Adın gül açır Şuşada.

Xəyyam üçün dar anda da,
Qorxmadın qandan, ölümdən!
Dedin: "qoy dostluq yaşasın,
Dost yolunda ölsəm də mən".

Yaralı Xəyyamı alıb,
Bir sığıncağa apardın.
Bu anı təsvir edirəm,
Yaza bilməyirəm ardın!

Dırmandığın qayaları -
Ya haqq deyən kəlmən bölür.
Bir gerçək var ki, qanlarla,
Azadlıq kəlməsi gülür.

Keçdiyin hər cığır səni,
Yaddaşına həkk eləyib.
O cığırda neçə Şəhid,
Son anında Vətən deyib.

Döyüşlərdə dostlarını
Qurtarmağın əfsanədir.
Sən yoxsan, bu yoxluğunda
Var olmağın əfsanədir.

Neçə yerdən yara aldın,
Bu qorxutmadı heç səni.
Sən öz qanınla sağaltdın,
Yarası ağır Vətəni!

Hardan alırdın bu gücü?
Həqiqətin batinindən?
İgid Ramiq, sənin üçün
Tək həqiqət Vətən, Vətən!

O Vətən ki baş daşında,
Dikəldir həqiqət adın!
Hər oğula qismət olmur
Bu haqq sən ölüb-yaşadın!

# Tabuta sığmayan Şəhid

*"Azərbaycan Bayrağı" ordenli Şəhid Xəyyam Əzizovun sayğıdəyər ruhuna ehtiramla...*

Tabuta sığmayan Şəhid,
Cismin yer altına sığır?
Yerin altından üstünə
Ruhun hər gün Günəş doğur!

Neftçaladan - Şuşayacan
Eşq yolu çəkdi eşq andın.
Sən Vətəni Tanrın bildin,
Tapındın ona, bağlandın!

Eralar keçər, açılmaz
Gün-gün kip bağlanar bu bağ.
Torpaq altda ana torpaq
Üstdə keşikçindir bayraq!

Ən gözəl Vətən şeirin
Sənin güllələrin yazdı.
Ölüm-olum savaşında
Ölüm yolumuzdan azdı!

Cəbrayıldakı hünərin
Səndən sonra danışıldı.
Füzulidəki təpərin
Dillərdəki alqış oldu.

Camalla çiyin-çiyinə
O gün yeridiz Hadruta,
Tanrı eşqindən nuş edib
Ölməzliyi aldız buta!

Ərgünəşdə ər oğlu ər,
Ərlik öyrətdin zamana.
Şuşaya ilk qədəm qoydun
Düşmən qaldı yana-yana.

Sən o sivri qayaları
Dişinə sıxıb canını
Necə qalxdın, necə, necə?
Ağıl çözə bilmir bunu.

Şuşaya gedəndə bildim,
Ayrıdır eşqin qanunu.
O qayalara çıxanlar
Sübut elədilər bunu.

Sən o gün təsdiq elədin
Vətən sevgisi başqadır.
Anamızın anasına
Sevgi hər eşqdən başdadır.

Şuşada elə döyüşdün
Döyüşün dillərdə gəzir.
Şuşanın hər qayasında
Ruhun hər gün keşik çəkir.

8 noyabr bu təqvim,
İki doğum günün o gün.
Birin Anançün doğuldun,
Birin Ana Vətən üçün!

Yazdın əfsanə gerçəkdi,
Eşqin tükənməz ilhamım.
Şəhadətin mübarəkdi,
İgid Xəyyamım,Xəyyamım!

Ey ünvanı əbədiyyət,
Əfsanəyə dönüb adın.
Payızda doğulub-öldün,
Sən Bahar ömrü yaşadın!

# Canlı Əfsanə

*1-ci əfsanəvi taborun döyüşçüsü kiçik gizir*
*Ayar Abbasova ithaf olunur...*

O qanlı-qadalı günlər yaşayıb,
Qoymur xatirələr toza bulana.
Qoymur düşüncəsi bircə qarış da,
O Şəhid dostlarsız bir an dolana.

Haraya gedirsə özüylə birgə,
Daşıyır dostların xatirələrin.
Özü gələcəyə bir irs aparır,
Ön üç əfsanənin əfsanələrin!

Kamildən danışır dolur gözləri,
Bahar buludutək yağacaq sanki.
Camaldan danışsa o dost sözləri,
Beynimdə ildırım çaxacaq sanki.

İlkindən bəhs etsə əlləri əsir,
Sübhanın döyüşü sığmır dilinə.
Beyrəyin, Ramiqin,Tərzanın eşqi,
Saçır cənnət ətrin, saçır dilinə.

Həmidi, Kərimi xatırlayanda
Gözünün qarası ağını örtür.
Eltonu,Elyarı yada salanda,
Xəyalı Tanrının ətəyin öpür.

Şəhriyar, Xəyyamın əfsanəsini,
Ondan dinləyəndə adam güc alır.
O danışdıqca sanki səndəki sən də,
Düşmənlə döyüşür, ondan öc alır.

Ayarın o Vətən məhəbbətinə,
Mələklər qibtəylə tamaşa edir.
Ayarçün bir eşq var bu yer üzündə,
O da Ana eşqi-Vətən eşqidir.

Bu qazi sevdası elə sağlam ki,
Düşünsən yenilər hissinə ağıl.
Qazilik qəzadır, fəqət bu qəza,
Başqa qəzalara bənzəməz, oğul!

Bu qəza haqqa yol, bu qəza haqdı,
Hər damla qanında Vətən boy atır.
Kim dursa qazilik mərtəbəsində,
Qəlbdə pıçıltısı Tanrıya çatır.

Ayar qardaşımın xatirələri,
Yurdumtək o qədər yara alıbdır.
Hər şəhid xatirə bir igid ömrü,
Hər ömür ölümə zəfər çalıbdır.

Ayarın gözləri göyə yol çəkir,
Burdan – Şuşayacan dağ-daşı aşır!
Düşüncəm Ayarın gözündə nəmlə-
Qolboyun, dilimdə bu söz dolaşır:

Torpağın ətrinə bax, barı Şəhid, varı Şəhid!
Bu Vətən sevgisinin Qazidi, bir yarı Şəhid!

Sən ucal göylərə göy qurşağıtək bayrağımız,
Varlığın uğruna el qazi olub, yarı Şəhid!

Torpağı dara çəkən qanlıları xar elədi,
Düşmənə eşqi ilə qurdu elə darı Şəhid!

Qanıdır bax dil açıb hər gecə-gündüz danışır,
Haq səsin ərşə qədər haqlı çəkir carı Şəhid!

Elnura, yurd uğuru yurduna eşqin,inamın,
Bu inam mənbəyidir eşqinə dildarı Şəhid!

# EPİLOQ

## Körpü

Köləlikdən-azadlığa
Neçə ruhu oyatdılar.
Ta Bakıdan-Qarabağa,
Şəhidlər körpü atdılar!

Ö körpü ruhlar körpüsü,
O körpü Şəhid qanıdır.
O körpü ahlar körpüsü,
Nidası eşqin canıdır!

O körpüdən keçir tarix,
Məğrur-məğrur qürura bax.
Bu qüruru yaşadanlar,
Məğrur adtək yaşayacaq.

O körpüdə dayanmışam,
Hər sahili eşq vəd edir.
Bu körpüdə hər addımda,
Bir eşq məndən öndə gedir!

Sanki demək istəyir ki,
Biz qurduq körpünü,keçin!
Şəhidlərə sağ ol üçün -
Söz tapa bilmir, söz elçim!

Bu körpüdə dayanmışam,
Hər tağında Vüsal adı.
Üstündən həsrət keçsə də,
Həsrətin izi qalmadı!

Bu körpüdə neçə-neçə,
Vüsala çatan sevda var.
Bu körpüdə Vətən bitər,
Bu körpüdə Vətən başlar.

Bu körpüdən boylananda,
Vətən bağı al-əlvandı.
Bu körpüdən boylananda,
Səma ağappaq dumandı.

Bu körpü haqqa körpüdür.
Burda inamdır yeriyən.
Mən də bu körpüdən keçən,
Eşq zəvvarının biriyəm.

Eşq körpüsü hər addımda
Üzündə aşiq nəfəsi.
Bu körpünün o başında,
Aydın gəlir eşqin səsi!

# MÜNDƏRİCAT

Əbədiyyət abidəsi........................................................................ 5
Yaşayanlar ölmür .......................................................................... 7
Aşiqlik dözülməyənlərə dözə bilməkdir... ........................ 13

**13 ƏFSANƏ**
(Poema)

Proloq.................................................................................. 27
Zəfər çalanlar ......................................................................... 29
13 Əfsanə ................................................................................ 34
Oğulluq haqqı.......................................................................... 53
Qeyrəti Zülfüqarım .................................................................. 56
Vətənə sevdalandı .................................................................... 58
Hadrut fatehi ........................................................................... 61
Adı Vətən ................................................................................ 63
Sevginin gerçək üzü................................................................. 65
Ulu ruh .................................................................................... 68
Sədaqətim şərəfimdir ............................................................... 71
Vətən ümidi.............................................................................. 74
İgid Tərzan .............................................................................. 77
Ölümün kabusu ........................................................................ 80
Ölüb yaşamaq.......................................................................... 83
Tabuta sığmayan Şəhid ............................................................ 86
Canlı Əfsanə............................................................................. 89
EPİLOQ: Körpü ....................................................................... 92

# QEYD

# QEYD

# ELNUR UĞUR

# 13 ƏFSANƏ

Korrektor: **Yetər KƏRİMOVA**
filoloq

Operator: **Xəyal SƏFƏROV**

Dizayner: **Tünzalə TAĞIYEVA**

Çapa imzalanmışdır: 03.04.2023
Kağız formatı: 60x84 1/16
Həcmi: 10 ç.v
Sifariş: 30;
Tiraj: 300
«Ecoprint» nəşriyyatında nəşrə hazırlanmış və ofset üsulu ilə
çap edilmişdir.